Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2026, **s. 120-126**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2026, **с. 120-126**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2026, **p. 120-126**

UOT 78.071.1(479.24):785.11

R.Ramazanov
aparıcı elmi işçi, bəstəkar,
Azərbaycan Bəstəkarlar və
Kinematoqrafçılar ittifaqının üzvü
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
AZ 1014, Bakı ş., Ş. Bədəlbəyli küçəsi, 98.
e-mail: rufatcomposer@gmail.com

BƏSTƏKAR ARİF MƏLİKOVUN ALTINCI SİMFONİYASINDA MUĞAMIN ELMİ-KONSEPTUAL İSTİFADƏ TƏRZİ

https://doi.org/10.30546/170899876.101.01.2026.120

***Açar sözlər*:** *bəstəkar, simfoniya, muğam, humayun, faktura, texnika, orkestr*

Məqalə, Azərbaycanın görkəmli bəstəkarı Arif Məlikovun simfonik musiqisinə həsr olunmuşdur. Bu tədqiqat işində, konkret olaraq bəstəkarın altıncı simfoniyasının təhlili əsas mövzu kimi seçilmişdir. Arif Məlikovun yaradıcılığı əsasən simfonik musiqisində özünün maraqlı xüsusiyyətlərini büruzə verir. Müəllif öz yaradıcılığı boyu səkkiz simfoniya, simfonik poemalar, oratoriya, kantata, kamera musiqisi və balet əsərlərini yazmışdır. Bəstəkarın simfoniyalarında muğamın istifadə tərzi çox maraq doğurur. Demək olar ki, muğamın istifadəsi, onun əsərlərində həm yaradıcı və həm də, elmi konsepsiyaya əsaslanaraq müəllifin bu sahədə yaratdığı çox maraqlı nəticəni nümayiş etdirmişdir. Altıncı simfoniyada, bəstəkar tərəfindən düşünülmüş metodlar musiqidə çox maraqlı üslub xüsusiyyətinin yaranmasına səbəb olur ki, bu da, bəstəkar yaradıcılığında əsas şərtlərdən biridir. Əsərdə bəzi musiqi epizodlarının nümunə kimi göstərilməsi ilə muğamın üzərində nə kimi yaradıcı prosesin aparılması özünü faktiki olaraq göstərir. Məhz bu da, bəstəkarın əsər əsasında elmi-yaradıcı münasibəti özünü büruzə verir. Bununla paralel olaraq, simfoniyada istifadə olunan mürəkkəb faktura, muğamın səslənməsində zəngin intonasiyaların yaranmasında əlaqələndirici pola malikdir.

Elmi yeniliyi: Məqalədə ilk dəfə olaraq, muğamın istifadəsi bir üslub kimi təhlil olunmuş və elmi-nəzəri baxımdan araşdırılmışdır. Artıq məlumdur ki, hər bir bəstəkar öz əsərində müraciət etdiyi muğamın melodik, faktura, ritmik, səs-fon və başqa xüsusiyyətlərin istifadəsi ilə öz üslubunda bəlli olan prinsiplərin sintezini yaradır. Bu da, müəllifin individual dünyagörüşü ilə paralellik əsasında yeni bir sistemin yaranmasına səbəb olur. Bununla, bəstəkar

muğam istifadəsində özünün yeni üslub tərzini büruzə verir ki, bu da məhz onun adı ilə bağlıdır. Əsərdə musiqinin orkestrləşməsi də, bəstəkarın simfonik yaradıcılığında əsas və çox maraqlı nümunələrdən biri kimi araşdırılır. Çünki bu da, yaradıcılığın əsas etibarilə gözə çarpan sahələrindən biridir.

Р.Рамазанов

НАУЧНО-КОНЦЕПТУАЛЬНОЕ ИСПОЛЬЗОВАНИЕ МУГАМА В ШЕСТОЙ СИМФОНИИ АРИФА МЕЛИКОВА

Ключевые слова: *композитор, симфония, мугам, хумаюн, фактура, техника, оркестр*

Статья посвящена симфонической музыке выдающегося азербайджанского композитора Арифа Маликова. В данном исследовании в качестве основной темы был выбран анализ шестой симфонии композитора. Интересные черты творчества Арифа Маликова проявляются прежде всего в его симфонической музыке. За свою творческую карьеру автор написал восемь симфоний, симфонические поэмы, оратории, кантаты, камерную музыку и балеты. Использование композитором мугама в своих симфониях весьма интересно. Можно сказать, что использование мугама в его произведениях продемонстрировали весьма интересные результаты, достигнутые автором в этой области, основанные как на творческой, так и на научной концепции. В Шестой симфонии методы, разработанные композитором, приводят к появлению очень интересной стилистической особенности в музыке, что является одним из главных условий творчества композитора. В работе, показано, какой творческий процесс осуществляется в жанре мугама, на примерах некоторых музыкальных эпизодов. Именно это и раскрывает научно-творческий подход композитора к произведению. Параллельно с этим, сложная фактура, используемая в симфонии, играет координирующую роль в создании богатой интонации при исполнении мугама.

Научная новизна: в статье впервые анализируется и исследуется использование мугама как стиля с научной и теоретической точки зрения. Уже известно, что каждый композитор создает синтез принципов, проявляющихся в его собственном стиле, используя мелодические, фактурные, ритмические, фоновые и другие характеристики мугама, к которому он обращается в своем творчестве. Это приводит к созданию новой системы, основанной на параллелизме с индивидуальным мировоззрением автора. Таким образом, композитор раскрывает свой новый стиль в использовании мугама, который неразрывно связан с его именем. В

произведении также рассматривается оркестровка музыки как один из главных и наиболее интересных примеров в симфоническом творчестве композитора. Потому что это одна из наиболее важных областей творчества.

R.Ramazanov

SCIENTIFIC AND CONCEPTUAL USE OF MUGHAM IN ARIF MELIKOV'S SIXTH SYMPHONY

Keywords: *composer, symphony, mugham, humayun, texture, technique, orchestra*

The article is dedicated to the symphonic music of the outstanding Azerbaijani composer Arif Melikov. In this study, the analysis of the composer's sixth symphony was chosen as the main topic. The interesting features of Arif Melikov's work are manifested primarily in his symphonic music. During his creative career, the author wrote eight symphonies, symphonic poems, oratorios, cantatas, chamber music and ballets. The composer's use of mugham in his symphonies is very interesting. It can be said that the use of mugham in his works demonstrated very interesting results achieved by the author in this area, based on both creative and scientific concepts. In the Sixth Symphony, the composer's methods lead to the emergence of a very interesting stylistic feature in the music, which is one of the main conditions of the composer's creativity. The work shows the creative process that takes place in the mugham genre, using examples of some musical episodes. This is precisely what reveals the composer’s scientific and creative approach to the work. In parallel, the complex facture used in the symphony plays a coordinating role in creating rich intonation when performing mugham.

Scientific novelty: This article is the first to analyze and explore the use of mugham as a style from a scientific and theoretical point of view. It is already known that each composer creates a synthesis of principles that manifest themselves in his own style, using the melodic, factural, rhythmic, background and other characteristics of the mugham to which he turns in his work. This leads to the creation of a new system based on parallelism with the author’s individual worldview. Thus, the composer reveals his new style in using mugham, which is inextricably linked with his name. The work also examines the orchestration of music as one of the main and most interesting examples in the composer’s symphonic work. Because it is one of the most important areas of creativity.

Azərbaycanın qədim muğam sənəti, artıq neçə əsrlərə ərzində qorunub, mühafizə edilməsi məlum bir faktdır. Milli incəsənətin bir sahəsi olan musiqi sənətinin, daha dəqiq desək, onun *"Şah damarı"* sayılan muğamın ifası olmadan təsəvvür etmək mümkün deyil. Müasir dövrümüzdə dünya siyasətinin bəzi ziddiyyətlərinin baş verməsi nəticəsində, qonşu ölkələrin bizim muğam sənətimizə qarşı olan mənimsəmə cəhtləri məlumdur. Məhz bunun nəticəsi olaraq, Dövlət və Hökumətimizin muğam sənətimizə olan mühafizəkar yanaşması nəticəsində, ölkəmizdə *"Beynəlxalq Muğam Mərkəzi"* kimi fundamnental bir yaradıcı mərkəzin təşkil olunması, bu sənətə olan əsl qayğının göstəricisidir. Bu işdə, xüsusilə ölkənin birinci vitse-prezidenti, eyni zamanda, Heydər Əliyev fondunun rəhbəri Mehriban Xanım Əliyevanın rolu əvəzolunmazdır.

Yaradıcılıq sahəsində isə, muğamın təbliğ olunmasında, xanəndə və xalq musiqi ifaçələrı ilə yanaşı, bəstəkarların fəaliyyətini xüsusilə qeyd etmək məqsədəuyğundur. Qeyd etmək lazımdır ki, Azərbaycan bəstəkarlarının yaradıcılığında muğam sənətinin təbliği, dünya müstəvisində özünü təsdiq etmişdir. Azərbaycan musiqi ədəbiyyatında qızıl hərflərlə qeyd olunmuş bir sıra əsərlər mövcuddur. Bunlardan Fikrət Əmirovun simfonik muğamlar, (eyni zamanda, bəstəkarın digər əsərlərini də nəzərə almaqla)[1] Niyazinin *"Rast"* simfonik muğamı, Qara Qarayevin "*Yeddi Gözəl"* baletini böyük ehtiramla göstərmək olar. Adları çəkilən bəstəkarların tələbələri və ardıcılları tərəfindən qələmə alınmış bir sira fundamental əsərlər, müasir dövrümüzə qədər müəllim-tələbə ardıcıllığı əsasında yaranmış məktəbin nəticəsi olaraq, çox maraqlı əsərlər meydana gəlmişdir.

Azərbaycan bəstəkarları sırasında özünəməxsus yeri olan sənətkar Arif Məlikovun adını xüsusilə göstərmək lazımdır. A.Məlikov professional musiqi yaradıcılığının müxtəlif janrlarında öz qələmini sınamış və bir çox dəyərli əsərlərin müəllifi olmuşdur. Bəstəkar bütün janrlarda qələmə aldığı əsərlər sırasında xüsusi olaraq simfonik musiqi nisbətən üstünlük təşkil edir. Bəstəkar bütün yaradıcılığı boyu səkkiz simfoniya qələmə almışdır. Onlardan hər biri, həm yaradıcılıq və eyni zamanda elmi-nəzəri baxımdan zəngin yeniliklərlə əhatələnmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, musiqi və musiqişünaslıq sahəsində yaradıcı tapıntıları məhz bəstəkarlar (eyni zamanda, yaradıcılığın digər sahələrində olduğu kimi) qələmə alır. Bəstəkarların (rəssamların, heykəltəraşların və.s.) yaratdığı yenilikləri araşdırıb, ona elmi qiymət verib, tədqiq edən musiqişünas və sənətşünaslar olmuşdur ki, bu da, elmi nəzəriyyə sahəsində bir tədqiqat kimi özünü göstərmişdir. Bunu əsas götürərək, göstərmək olar ki, ön sıralarda addımlayan, məhz yaradıcı insanlar olmuşdur. Elm və nəzəriyyə onun arxasınca gələn bir qüdrətli ordudur. Bu

[1] Məlum olduğu kimi, əsərdə hər-hansi bir muğamın isitifadəsi iki üsul üzərində mümkün olur. Bunlardan birincisi muğamın sitat istifadəsi ilə yaranan və onun adı ilə əlaqələndirilən əsər. İkincisi isə heç bir sitatdan istifadə olmayaraq, amma muğamın tematik, ritmik, məqam kimi xüsusiyyətlərindən bəhrələnməsi ilə yerinə yetirilən istifadə xüsusiyyətidir. Hər iki üsul, Azərbaycan bəstəkarlarının yaradıcılığında çox geniş yayılmışdır.

kimi bəstəkarlardan biri də, məhz Arif Məlikov olmuşdur. Bu tədqiqat əsasında, bizim araşdırma obyektimiz, müəllifin 6-cı simfoniyasıdır.

Qeyd etmək olar ki, bəstəkarın 6-cı simfoniyası, müəllifin simfonik yaradıcılığında böyük mərhələvi xarakter daşıyır. Eyni zamanda, bu əsər bəstəkarın əvvəlki əsərlərinin inkişafında, müəyyən parlaq nəticəni özündə ehtiva edən bir musiqidir.

Bəstəkarın 6-cı simfoniyası, müəllifin muğam biliyinin, yaradıcı hissiyyatının ən yüksək həddini özündə ifadə edir. Məlum olduğu kimi, A.Məlikov özü musiqi aləminə tar ifaçılığı ilə qədəm qoymuşdur. Onun bir tarzən kimi formalaşıb, inkişaf etməsi, gələcəkdə bəstəkar kimi zəngin təxəyyülə malik olmasında müstəsna rol oynamışdır. Qeyd etmək lazımdır ki, bəstəkarın təxəyyülündə *"iki qütbün"* birləşməsi, Avropa musiqi ənənəsi ilə Şərqin musiqi ənənəsinin sintezi onun inkişafında çox unikal bir yaradıcı qüvvəni yaratmışdır.

Adı çəkilən simfoniya, tam mənada *"Humayun"* muğamının tematik nümunəsi üzərində qurulmuşdur. Bu barədə, tanınmış musiqişünas-alim Nelli Ələkbərova bəstəkarın yaradıcılığına həsr etdiyi monoqrafiyasında qeyd etmişdir. [1.s.160]

Simfoniyanın tematik quruluşu olduqca maraqlı şəkildə həll edilmişdir. Burada bəstəkar əsərin əsas mövzusu kimi istifadə olunan *"Humayun"* muğamının melodik xüsusiyyətini çox kiçik epizodlarla, hətta mən deyərdim *"mozaik"* düzülüşdə ifadə edib, əsərin labüd forma-strukturunu yaratmışdır.




Verilmiş nümunə, simfoniyanın giriş hissəsini təşkil edir. Nümunədən gördüyümüz kimi, burada bəstəkar əsərin kulminasiyasında səslənən *"Humayun"* muğamının mayesinə aid olan kiçik intonasiyanın mikri-variantını ifadə edir. Sanki müəllif öncədən onu *"xəbərdarlıq"* edir. Bu epizod *C. İngl.* ifasında olduqca maraqlı və *"məxmər"* səslənmə ilə özünü göstərir. Lakin burada müəllif tərəfindən nəfəsli alətin mövcud diapozonu çərçivəsində temperasiya genişliyinə nail olur. Bu da, həmin alətin ifa xüsusiyyətində çox maraqlısəslənməsini ifadə edir. Həmin verilmiş epizod, sanki əsərin dramaturji əsasında bəlli olan bütün dinamik, ziddiyyətli anların özünü göstərməsindən dinləyiciləri agah edir. *"C.ingl."* ifasında səslənən epizod zamanı, orkestrdə fon səslənir ki, bu da simfonizmin qanunlarına əsasən müəyyən səs həmahəngliyi ilə, müşaiyət rolunu oynayır.



Verilmiş nümunə simfoniyanın əsas mövzusu rolunu oynayan muğam epizodunun sitat variantıdır. Qeyd etmək lazımdır ki, hər bir bəstəkar yaradıcı insan olaraq, muğamın melodik nümunəsindən sitat kimi bəhrələnirsə, o artıq müəllifin öz şəxsi təxəyyülünün bəhrəsi kimi özünü göstərir. Yəni həmin muğamın intonasiya nümunəsi, bəstəkarın özünə məxsus olur. Həmin bu musiqi epizodu da, məhz A.Məlikov təxəyyülünün bəhrəsi kimi səslənir. Növbəti xanələrdə həmin epizod, melodik nöqteyi-nəzərdən muğama xas olan tərzdə improvizəvi baxımdan genişlənərək, zəngin bir *"işləmə"* prosesinə qədəm qoyur. Bu da, simfonik musiqinin parlaq müəllif yozmasını bir daha təsdiq edir.



Yuxarıda verilmiş nümunə, demək olar ki, bəstəkar tərəfindən əsərin əsas mövzusunun tematik planı üzərində bir növ düşünülmüş improvizə variantıdır ki bu da, əsərin inkişafının (işləməsinin) yerinə yetirməsində "vasitəçi" rolunu oynayır. Həmin epizod, olduqca geniş və eyni zamanda zəngin improvizəvi gəzişməni göstərir.



Qeyd etmək lazımdır ki, yuxarıda verilmiş nümunə ilə orkestrdə *tutti* ifasında möhtəşəm fon səslənir ki, bu da mövzunun səslənməsində zəngin obraz yaradır. Demək olar ki, bu epizod simfoniyanın dramaturji quruluşunda olduqca təsirli və eyni zamanda ziddiyyətli xarakter yaradır. Məhz buna görə də müəllif əsərin proqramını "Təzadlar" adlandırmışdır. Bu mövzu inkişaf etdikcə tədricən fon xarakterini yaradır. Bu da, məhz simlilərin ifasında səslənir. Bu dramatik epizodun səslənməsindən sonra, müəyyən sakitlik yaranaraq, klarinetin solo ifasında həmin əsas mövzunun tematik nümunəsi yeni bir improvizəvi şəkildə səslənir.

Yuxarıda qeyd edilənləri bir daha təsdiqləyərək, əsərin müasir dövrümüzdə də özünün yaradıcı aktuallığını təsdiq etməsi, onun muğam istifadəsində

zəmanəmizin ən yüksək yaradıcı-elmi mahiyyətinin mövcudluğundan xəbər verir.

ƏDƏBİYYAT

1. Нелли Алекперова «АРИФ МЕЛИКОВ» Б.: Ишыг, 1988, с 160.
2. Ницше Фридрих «Антихристианин. Опыт критики христианства». Сумерки богов. М.: Издательство политической литературы. 1990, с. 17.

Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.05.2026
Məqaləni çapa qəbul olunma tarixi: 14.05.2026
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq doktoru, professor Nailə Rəhimbəyli
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.